

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblәgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 64 (21.216)

3 aprel 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin-Rəşid Əl-Maktumun aprelin 2-də rəsmi qarşılanma mərasimi olub.

* * *

Aprelin 2-də rəsmi qarşılanma mərasimi başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin-Rəşid Əl-Maktumun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq, iqtisadi sahədə əlaqələrin genişləndirilməsi perspektivləri, qarşılıqlı və birgə investisiyalar, turizm və digər məsələlər müzakirə olundu. Görüşdə regional təhlükəsizlik və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Aprelin 2-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Prezident İlham Əliyevin və Əlahəzrət Şeyx Məhəmməd bin-Rəşid Əl-Maktumun iştirakı ilə Azərbaycan Respublikası və Birləşmiş Ərəb Əmirlikləri arasında sənədlərin imzalanması mərasimi olub.



## Heydər Əliyev Muzeyində növbəti açıq dərs



***Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Naxçıvan Müəllimlər İnstitutunun tələbələrinin iştirakı ilə açıq dərs keçilib.***

"Dilimizin inkişafında ulu öndər Heydər Əliyevin rolu" mövzusunda keçilən açıq dərsdə institutun Dillər və ədəbiyyat kafedrasının müdiri, dosent Arif Ağalarov bildirib ki, XX əsrin son 30 ilində Azərbaycan dilinin hərtərəfli inkişaf etməsi və zənginləşməsi, onun dövlət dilinə, rəsmi sənədlərin dilinə çevrilməsi, beynəlxalq münasibətlər, dünya diplomatiyası sahəsində tətbiqi və nüfuz qazanması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ildə Azərbaycana rəhbər seçilən görkəmli dövlət xadimi Heydər Əliyev bütün manelərə baxmayaraq, ana dilinin inkişafı üçün mühüm tədbirlər həyata keçirib. Azərbaycan dilinin dövlət dili statusu qazanması məsələsi, həmçinin Azərbaycan cəmiyyətində onilliklərboyu yığılıb qalmış iqtisadi, siyasi və sosial problemlər yalnız keçən əsrin 60-cı illərinin sonunda görkəmli dövlət xadimi Heydər Əliyev ölkə rəhbərliyinə gələndən sonra gündəmə çıxarılıb. Məhz ana dili məsələsində ümummilli lider Heydər Əliyevin prinsipiallığı və qətiyyəti sayəsində Azərbaycan Respublikasının 1978-ci ildə qəbul edilmiş Konstitusiyasına Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili olması haqda 73-cü maddə daxil edildi. O dövrdə milli dilə Konstitusiya səviyyəsində dövlət dili statusu vermiş üç keçmiş sovet respublikasından biri və yeganə müsəlman respublikası Azərbaycan idi.

Ulu öndərimizin müstəqil Azərbaycan dövlətinə rəhbərlik etdiyi ilk günlərdən etibarən yeni tarixi şəraitin ruhuna və tələblərinə uyğun olaraq, Azərbaycan dilinə göstərilən diqqət və qayğı həm siyasi, həm də praktik baxımdan fərqlənirdi. Xalqımızın böyük oğlu Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" və "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" fərmanları sayəsində ədəbi dilimizin fəaliyyət sahəsi daha da genişlənib, onun müxtəlif üslublarının potensialı bir daha aşkar edilib, bütövlükdə, dil mədəniyyətimizin qarşısında yeni üfüqlər açılıb. İnamla demək olar ki, dahi rəhbər Heydər Əliyev özünün çoxillik yorulmaz, titanik fəaliyyəti ilə həm Azərbaycan dövlətinin, həm də Azərbaycan dilinin nüfuzunu yüksəldib.

Açıq dərsdən sonra institutun tələbələri Heydər Əliyev Muzeyinin ekspozisiyası ilə tanış olublar.

***İnsanların sağlamlığı istənilən dövrdə cəmiyyətin ən böyük sərvəti hesab olunub. Yalnız sağlam olanlar cəmiyyətə xeyir verər, onun inkişafı üçün əzmlə çalışar. Odur ki, Naxçıvan Muxtar Respublikasında da insanların sağlamlığının qorunmasına, səhiyyə infrastrukturunun müasir tələblər səviyyəsində qurulmasına böyük diqqət göstərilir.***

## Muxtar respublika xəstəxanası regionun ən böyük səhiyyə ocaqlarından biri olacaq

Ötən dövr ərzində səhiyyə sistemində aparılan islahatlar tibb ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsinə, xidmətin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına imkan verib. Səhiyyə quruculuğu istiqamətində həyata keçirilən tədbirlərin mühüm bir hissəsini də yeni səhiyyə müəssisələrinin tikilməsi, mövcud olanların əsaslı şəkildə yenidən qurulması təşkil edir. Muxtar respublikanın ən böyük tibb ocağı olan Naxçıvan Muxtar Respublika Xəstəxanası binasının əsaslı şəkildə yenidən qurulması da məhz insan sağlamlığının mühafizəsinə yönəldilmiş mühüm tədbirlərdən biridir.

2012-ci ilin avqust ayından başlayaraq "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yenidən qurulan binada indiyədək xeyli iş görülüb. Belə ki, ilkin mərhələdə binanın təməl hissəsinin daha da möhkəmləndirilməsi məqsədilə ətraf xüsusi beton örtüyü ilə əhatələnib, zirzəmidə üçmərhələli izolyasiya işləri aparılıb. Zirzəmi ilə birlikdə 8 mərtəbədən ibarət olan binada tikinti işləri, su, elektrik, istilik xətlərinin çəkilişi başa çatdırılıb, dam örtüyü vurulub, pəncərələr salınıb. Binanın ilk 3 mərtəbəsinin fasadı üzlük daşla üzlənib, digər hissələr isə poliestr və digər yerli inşaat materiallarından istifadə olunmaqla klassik və müasir memarlıq elementləri ilə zənginləşdiriləcək.



Qeyd edək ki, xəstəxanada 109 palata yerləşəcək, çarpazşəkilli dördkorpuslu binanın hər korpusunda yük və sərnişin liftləri olmaqla, 10 lift fəaliyyət göstərəcək. Binanın giriş hissəsinin oval şəbəkəbənd formasında olması isə bu səhiyyə ocağına gələnlərə asanlıqla bir korpusdan digərinə keçmək imkanı yaradacaq. Bundan əlavə, yeni layihəyə əsasən, binanın zirzəmi hissəsində masaj salonu, SPA mərkəzi, hovuz, duş kabinələri, morq, həkim və tibb bacıları üçün otaqlar və xidməti yerlər yaradılacaq. Birinci mərtəbə stomatoloji kabinələr, təcili yardım, palatalar, fizioterapiya, ot vannası və Naftalan nefti ilə müalicə kabinələri, rentgen, əməliyyat otaqları üçün nəzərdə tutulub. Qalan mərtəbələr isə xəstəxananın şöbə və bölmələri, həkim və tibb bacıları, palatalar və digər müayinə və müalicə otaqları, laboratoriyalar, istirahət guşələri üçün ayrılıb. Binanın sonuncu mərtəbəsində geniş akt zalı, kafe və tibb təhsili alan tələbələr üçün siniflər yerləşəcək. Xəstəxana binası istifadəyə verildikdən sonra 50 metr kənarda yeni köməkçi bina da fəaliyyət göstərəcək ki, bu ikimərtəbəli binada da qazanxana, camaşırxana, elektrik və təsərrüfat otaqları, bufet və sair yerləşəcək.

Qeyd edək ki, xəstəxanada ən müasir tibbi avadanlıqlar quraşdırılacaq. Dövlət başçısının 2014-cü il 11 aprel tarixli Sərəncamı ilə xəstəxananın müasir tibbi avadanlıqlarla təchiz olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 9 milyon manat vəsait ayrılıb.

Müasir layihə əsasında yenidən qurulan xəstəxana binası istifadəyə verildikdən sonra nəinki muxtar respublikanın, hətta bütün regionun ən nəhəng səhiyyə ocaqlarından biri olacaq.

## İstehsalatda bədbəxt hadisələrin sayı azalıb

2015-ci ilin birinci rübündə tikinti və istehsal müəssisələrində işçilərin əmək şəraitinin, habelə iş yerlərinin əməyin mühafizəsi qaydalarına uyğun olmasının, işəgötürənlər tərəfindən işçilərin fərdi mühafizə vasitələri, eləcə də xüsusi geyimlə təmin edilməsinin və həmin vasitələrdən istifadənin vəziyyəti ilə bağlı muxtar respublika üzrə, ümumilikdə, 20 obyektə baxış keçirilib. 15 halda istehsal sahəsində çalışan işçilər fərdi və kollektiv mühafizə vasitələri ilə təmin olunub, fərdi mühafizə vasitələri olmayan 9 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılıb. Əməyin mühafizəsi üzrə tələblərin pozulmasına görə 1 işəgötürənə 1500 manat məbləğində cərimə tətbiq olunub. Bəhs olunan dövrdə xidmətə səhiyyə müəssisələrindən xəsarətalma ilə bağlı 7 məlumat daxil olub.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətindən aldığımız məlumatda bildirilir ki, xəsarətalmaların istehsalatla əlaqəli olmadığı aşkarlanıb. İstehsalatla əlaqəli olan 3 hadisə zamanı isə 3 nəfər yüngül xəsarət alıb. Xəsarətalmalarla əlaqədar müəssisələrin işəgötürənlərinə iş sahələrində əməyin mühafizəsi norma və qaydalarına riayət etmələrinə dair xəbərdarlıq edilib, həmçinin metodik köməkliklər göstərilib. Bir halda isə ağır xəsarətlə nəticələnən hadisənin xidmətin əmrinə əsasən yaradılmış təhqiqat komissiyası tərəfindən təhqiqatına başlanılıb. 2014-cü ilin birinci rübü ilə müqayisədə bu ilin müvafiq dövründə xəsarətalma ilə bağlı daxil olmuş məlumatların, həmçinin istehsalatla əlaqəli olan hadisələrin sayında azalma müşahidə olunub.

Məlumatda o da bildirilib ki, tikinti sahəsində işə başlamazdan əvvəl sanitar, yanğın, ekoloji təhlükəsizliyə, təmir-tikinti aparılan yerdə xüsusi işarələrin qoyulmasına, işçi heyət üçün soyunub-geyinmə çadırlarına, həmçinin işçilərin nahar və istirahət etmələri üçün sanitar-gigiyenik qaydalara cavab verən xüsusi yerlərin hazırlanmasına nəzarət aparıldıqdan sonra 3 halda müvafiq orqanların nümayəndələri ilə birlikdə işə başlanmasına dair akt tərtib edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi məqsədilə hazırlanmış Tədbirlər Planına əsasən, "Qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqavilələrinin bağlanması, onlara verilən əməkhaqlarının reallığı əks etdirməsi ilə bağlı tədbirlərin görülməsi" məqsədilə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin, Dövlət Sosial Müdafiə Fondunun, Dövlət Statistika Komitəsinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin nümayəndələrindən ibarət yaradılmış komissiya tərəfindən rüb ərzində, ümumilikdə, 103 obyektdə aparılan araşdırma zamanı 66 işçi ilə yeni əmək müqaviləsi bağlanması təmin edilib, 123 halda isə əmək müqaviləsində əməkhaqqının artırılmasına nail olunub. Bu dövr ərzində Naxçıvan Regional Peşə Tədris Mərkəzində əməyin mühafizəsi və texniki norma, qayda və standartlara əməl olunması ilə bağlı maarifləndirici kurs təşkil olunub. Kursa 33 tikinti, istehsal və sənaye müəssisəsinin 37 nəfər əməyin mühafizəsi üzrə mütəxəssisi cəlb edilib, iştirakçıların biliklərinin yoxlanılması məqsədilə imtahan keçirilib. Tədris prosesində Dövlət Əmək Müfəttişliyi Xidmətinin nümayəndələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Səhiyyə Nazirliyinin və Dövlət Baş Sığorta Agentliyinin nümayəndələrinin də iştirakı təmin edilib.

**Xəbərlər şöbəsi**

*Ordum varsa*

# Cəsur əsgər, güclü ordu – sabaha inam

***Ordu hər bir ölkənin müstəqilliyinin təminatçısı olduğu kimi, dövlətlərin inkişafının da qarantıdır. Tarix sübut edir ki, müstəqilliyin yoxdursa, ordun, ordun yoxdursa, müstəqilliyin olmayacaq. Milli tariximizin ötən yüz ilində bu fikrin həqiqət olduğuna dəfələrlə şahid olmuşuq. Elə ötən əsrin həm əvvəlləri, həm də sonlarında tarixi torpaqlarımızın işğalının əsas səbəbi məhz güclü milli orduya malik olmamağımız olub. Bu mənada uzun illərdən bəri haqsızlıqla mübarizə aparmağa məcbur olan Azərbaycanın güclü olmaqdan başqa yolu yoxdur. Şükürlər olsun ki, indi müstəqil Azərbaycanın hərtərəfli inkişafı, bu inkişafın qoruyucusuna çevrilmiş Silahlı Qüvvələrimiz haqqı olduğu gücü artıq əldə edib. Ancaq bu gücü – Milli Ordumuzu yaratmaq, təkmilləşdirmək, Cənubi Qafqazın ən güclü ordusuna çevirmək heç də asan başa gəlməyib.***



Xatırladaq ki, Azərbaycanda milli ordu quruculuğunun əsasının qoyulması ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrünə təsadüf edir. İlk dəfə olaraq Ali Məclisin 1991-ci il sentyabrın 7-də ümummilli liderin rəhbərliyi ilə keçirilən sessiyasında Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin təşkil olunması haqqında qərar qəbul edildi. Bu hadisə Azərbaycanın müstəqillik tarixində mühüm əhəmiyyət kəsb edir. Məhz Naxçıvandan başlanan milli ordu quruculuğu prosesi ulu öndərin xalqın təkidli tələbi ilə ikinci dəfə ölkəmizdə ali hakimiyyətə qayıdışından sonra uğurla davam etdirilib, Silahlı Qüvvələrin formalaşdırılması işi ardıcıl şəkildə həyata keçirilib. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublikada da Silahlı Qüvvələrimizin birləşmə və hissələri böyük inkişaf yolu keçərək regionun təhlükəsizliyinin qorunmasında öz sözünü deyir.

Heç kəsə sirr deyil ki, Naxçıvan Muxtar Respublikası nəinki Azərbaycanın, Cənubi Qafqazın, bütövlükdə, Türk dünyasının ən həssas regionlarından biridir. Ərazi baxımından ölkənin əsas torpaqlarından ayrı düşən Naxçıvan sosial-iqtisadi, hərbi-siyasi cəhətdən inkişafını blokada vəziyyətində davam etdirir.

Naxçıvan hər zaman və hər kəsin marağında olan diyar olub. Ötən əsrin sonlarında bu torpaq uğrunda güclü döyüşlər gedib, igid oğullarımız şəhid olublar. Ancaq heç bir halda bu qədim diyar düşmənə təslim olmayıb. Naxçıvanın təhlükəsizliyi Azərbaycan dövlətinin, ölkə başçısı, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Məhz bu təhlükəsizliyin yüksək səviyyədə təminatı üçün muxtar respublikada yerləşən 5-ci Ordu Korpusunun bazasında Əlahiddə Ümumqoşun Ordusu yaradılıb. Muxtar respublikanın müdafiəsinin etibarlı təminatı üçün atılan bu addım Naxçıvanın hərbi gücünün artırılmasında yeni bir mərhələyə çevrilib. Ötən müddət ərzində bu ordunun arsenalının ən müasir vasitələrlə təminatı, şəxsi heyətin peşəkar hərbi təlimlərdə iştirakı, əlbəttə, düşmənlərimizi narahat etməyə bilməzdi. Xatırimizdədir ki, ötən il atəşkəsin, guya, Naxçıvan tərəfindən dəfələrlə pozulduğuna Qərb dairələrini inandırmağa çalışan erməni rəhbərliyinin canfəşanlığı da məhz burada Əlahiddə Ümumqoşun Ordusunun yaradılmasından doğan narahatlıqdan idi. Atəşkəsin Naxçıvan tərəfdən heç zaman pozulmasını arzulamayan düşmənin vəziyyətinin ildən-ilə ağırlaşdığını indi kiməsə sübut etməyə lüzum yoxdur. Muxtar respublikanın düşmənlə təmas xəttini təşkil edən sərhədlərimizin etibarlı müdafiəsini və buradakı hərbi birləşmələrin istənilən an qarşı tərəfə ölümcül zərbələr endirəcəyini, təbii ki, düşmən bilməmiş deyil. Naxçıvanın gücündən hələ ötən əsrin sonlarından, sözün əsl mənasında, öz payını almış düşmən zaman-zaman bu qədim türk torpağı haqqında yalan informasiyalar yaysa da, heç zaman istəyinə nail ola bilməyib. Təbii ki, bütün bu üstünlüklərin əldə olunmasında buradakı hərbi potensialın və Azərbaycan əsgərinin rolu böyükdür. Sərhədlərimizi düşməndən sayıqlıqla müdafiə edən bu əsgərlərlə görüşə Novruz bayramı ərəfəsində getdik.

Şahbuz rayonunun Batabat yaylağında yerləşən hərbi hissədə əvvəllər də olmuşduq. Turizm zonası kimi diqqət mərkəzində olan, yay fəslində yamyaşıl təbiəti ilə gözoxşayan, sərin sulu bulaqları ilə ürəkləri sərinlədən Batabatda hələ də qış fəsli hakim idi. Bir neçə gün yağan qar ətrafı ağ örpəyə bürümüşdü. Əsgərlərlə görüşə tək getmirdik. Muxtar respublikanın mədəniyyət müəssisələri kollektivlərinin üzvləri də burada keçiriləcək bayram tədbirində iştirak edəcəkdilər.

... Üzərində üçrəngli bayrağımızın dalğalandığı hərbi hissə ağörtüklü qarın fonunda gözəl və möhtəşəm görünürdü. Əsgər yataqxanasının qarşısında hərbi hissənin komandiri bizi gülərüzlə qarşıladı, hal-əhval tutduqdan sonra çay süfrəsi ətrafında əyləşdik. Hərbi hissənin ərazisi qardan təmizlənir. Bir azdan burada böyük bir bayram tonqalı qalandı. Havanın soyuq olmasına baxmayaraq, əsgərlər tonqal ətrafında dövrə vuraraq mahnı oxuyur, rəqs edir, şənlənirdilər. Tədbir əsgər yeməkxanasında davam etdirildi. Burada çıxış edənlər ordumuzun keçdiyi tarixi inkişaf yolundan danışır, xalq-ordu birliyinin sarsılmaz olduğunu, əsgərlərimizlə qürur duyduqlarını söyləyirdilər. Bayram tədbirində vətənpərvərlik ruhunda şeirlər səsləndirilir, mahnılar oxunur, əsgərlərimiz rəqs edirdilər.



Bayram konsertindən sonra hərbi hissənin bizi müşayiət edən zabitləri ilə əsgər yataqxanasını gəzirik. Məlumat üçün bildirək ki, ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlərin nümunəsini burada da görmək mümkündür. İkimərtəbəli binada yataq otaqları, yeməkxana, idman zalı, qonaq otağı, bufet, sinif otaqları yerləşir. Öyrənirik ki, burada əsgərlərin istər fiziki, istərsə də döyüş hazırlığı üçün hərtərəfli şərait yaradılıb. Dəniz səviyyəsindən 2800 metr yüksəklikdə yerləşən bu təmas xəttində əsgərlərimiz hər an istənilən vəzifə və tapşırıqları yerinə yetirməyə hazırdırlar. Səngərdə növbəyə çıxmağa hazırlaşan əsgərlərdən bir neçəsi ilə söhbət edirik. Naxçıvan şəhərindən Nadir Həmidov, Şərur rayonundan İbrahim Bayramov, Masallı rayonundan Ceyhun Hacılı xidmətləri ilə fəxr etdiklərini, Vətənin müdafiəsinin onlara həvalə olunduğundan qürur duyduqlarını qeyd etdilər. Havaların soyuq keçməsinin, qarlı hava şəraitinin onları qorxutmadığını bildirdilər. Bakı şəhərindən olan Akif Səfərov isə artıq xidmətinin son günlərini keçirdiyini dedi. 18 aylıq xidmətin çox sürətlə keçdiyini deyən həmsöhbətimiz buradakı səngərlərin hər daşına, qayasına bələd olduğunu söyləyir. Onu da bildirir ki, xidmətinin başa çatmasına baxmayaraq, hər zaman düşmənlə mübarizəyə hazırdır. Düşmənin qorxaq, nizam-intizama tabe olmayan, tarixboyu onun-bunun kölgəsində sürünən olduğunu deyən Akifin fikirlərini digər əsgər yoldaşları da təsdiq edirlər. Ali Baş Komandanın əmri ilə çox qısa müddətdə işğal altında olan torpaqlarımızı geri qaytaracaqlarını söyləyən müsahiblərimiz o günün çox da uzaqda olmadığını bildirirlər. Növbəyə yollanacaq əsgərlərimizi bir daha bayram münasibətilə təbrik edib xidmətlərində uğurlar arzulayaraq oradan ayrılırıq...

***Bəli, Milli Ordumuzun bu qorxmaz əsgərləri ilə söhbət etdikcə bir daha yəqin edirsən ki, torpaqlarımızın işğaldan azad olunacağı gün uzaqda deyil. Ürəkləri Vətən sevgisi ilə döyünən bu əsgərlərimizlə biz həm də tarixi torpaqlarımıza qayıdacağıq – haqqı və tarixi ədaləti bərpa etmək üçün. Bu haqqı isə dədə-babalarımızın bizə əmanət qoyduğu torpaqlar və bu torpaqları sahibinə qaytaracaq ordumuz verir.***

**Səbuhi HƏSƏNOV**

## Növbəti kurs təşkil olunub



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın işçilərin əmək hüquqlarının təmin edilməsi üzrə bəndinin icrasına uyğun olaraq, Naxçıvan Regional Peşə Tədris Mərkəzində kurs təşkil olunub. "Əmək münasibətlərinin rəsmiləşdirilməsi zamanı qanunvericiliyin tələbləri" mövzusunda təşkil olunmuş kursa "Cahan Holdinq", "Dizayn Holdinq" və "Gəmiqaya Holdinq" Şirkətlər ittifaqlarının kadr işləri üzrə, ümumilikdə, 22 mütəxəssisi cəlb olunub.

Kursda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin mütəxəssisləri tərəfindən "Əmək müqaviləsinin bağlanmasının əsasları və qaydaları", "Əmək müqaviləsinin nümunəvi forması, onun düzgün doldurulması və ona dəyişikliklərin edilməsi qaydaları", "Əmək müqaviləsinə xitam verilməsinin əsasları və qaydaları", "Əmək müqaviləsi üzrə işəgötürən və işçinin hüquq və vəzifələri", "Əmək münasibətləri zamanı digər sənədləşmə işlərinin qanunamüvafiq həyata keçirilməsi"nə dair, habelə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin və Həmkarlar İttifaqları Şurasının nümayəndələri tərəfindən "Muxtar respublika ərazisində əmək miqrasiyası proseslərinin tənzimlənməsi", "İşçilərin əmək hüquqlarının müdafiəsi" ilə bağlı mövzular tədris olunacaq.

Qeyd edək ki, əmək münasibətlərinin qanunvericiliyin tələblərinə uyğun rəsmiləşdirilməsi qeyri-leqal əmək münasibətlərinin qarşısının alınmasında, işçilərin əmək hüquqlarının müdafiəsinin gücləndirilməsində, dövlət büdcəsinin gəlirlərinin və sosial sığorta haqlarının artmasında, həmçinin əmək bazarının təhlilində mühüm rol oynayır.

Aprelin 1-dən başlayan kurs 7 gün davam edəcək. Sonda kurs iştirakçılarının bu sahədə bilikləri yoxlanılacaq.

**Xəbərlər şöbəsi**

# İstehlak mallarının ekspertizası beynəlxalq standartlara uyğun şəkildə aparılır

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin nəzdində fəaliyyət göstərən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən ərzaq mallarının keyfiyyətinə nəzarət davam etdirilir.***

"İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mütəmadi olaraq məqsədyönlü tədbirlər həyata keçirilib. Ötən illər ərzində ABŞ, Almaniya, İngiltərə, Polşa, İtaliya, Türkiyə istehsalı olan, beynəlxalq standartlara uyğun laboratoriya avadanlıqları alınıb quraşdırılıb. Laboratoriyada mütəmadi olaraq yerli və idxal məhsullarından nümunələr götürülərək təhlillər aparılıb.

Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində aparılan dövlət nəzarətinin bir hissəsini də yerli istehsal və idxal məhsullarının orqanoleptik, fiziki-kimyəvi, mikrobioloji və toksikoloji göstəricilərinin yoxlanması təşkil edir.

Cari ilin ilk 3 ayı ərzində 258 halda hüquqi və 283 halda fiziki şəxslər tərəfindən daxil olmuş 57 mal çeşidini əhatə edən 541 halda mal nümunəsi laboratoriya analizindən keçirilib, aparılmış laboratoriya təhlilləri, əsasən, 401 yerli istehsal məhsullarını və 140 idxal məhsullarını əhatə edib. Nəticədə, 540 halda məhsulun keyfiyyət göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi, 1 halda mal nümunəsinin keyfiyyət göstəricilərinin aşağı olduğu müəyyən edilib.

"İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC tərəfindən Mərkəzi qida sınaq laboratoriyasının beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması istiqamətində tədbirlər davam etdirilir.

Akkreditasiya istiqamətində görülmüş işlərin nəticəsi olaraq, laboratoriya Latviya Respublikasının Milli Akkreditasiya Bürosunun 28 yanvar 2014-cü il tarixli şəhadətnaməsi ilə 27 yanvar 2018-ci il tarixədək İSO/İEC 17025:2005 standartı üzrə sertifikatlaşdırılıb.

İSO/İEC 17025:2005 standartının tələblərinə uyğun olaraq, laboratoriya ərzaq məhsullarında kimyəvi, fiziki-kimyəvi və toksikoloji sınaqlar üzrə akkreditə edilib. Akkreditasiya sahəsinə ərzaq məhsullarında ağır metallardan qurğuşun və kadmium elementlərinin, ət məhsullarında nitrat, nitrit, süd və süd məhsullarında isə quru maddələrin kütlə payı, yağlılığın təyin olunması və zülalın təyini daxil edilib.

"İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin Mərkəzi qida sınaq laboratoriyasının beynəlxalq akkreditasiyanın tələblərinə uyğun olaraq yoxlanılan sınaqların beynəlxalq standartlara uyğunlaşdırılmasının təmin edilməsi və əməkdaşların İSO 17025 standartının tələblərinə uyğun peşəkarlığının artırılması məqsədilə 27-30 yanvar 2015-ci il tarixlərdə ekspertlər tərəfindən cəmiyyətin mütəxəssislərinin iştirakı ilə kimyəvi və toksikoloji laboratoriya analizləri üzrə treninqlər keçilib.

Cari ilin ilk 3 ayı ərzində "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqına sement, travertin və mərmər məhsullarının Gürcüstan Respublikasına aparılması üçün 14 halda, "Təchizat" ATSC-yə iribuynuzlu heyvan dərisinin Türkiyə Respublikasına aparılması üçün 6 halda, "Naxçıvan Avtomobil Zavodu" MMC-yə 3 ədəd avtomobilin Belarus Respublikasına aparılması üçün 1 halda olmaqla, cəmi 21 halda mənşə sertifikatı verilib.

Azərbaycan Respublikasında qida sektorunda sayca 3-cü, muxtar respublikada ilk beynəlxalq akkreditasiyalı laboratoriya olan "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi qida sınaq laboratoriyası regionumuzda istehsal edilən və ya muxtar respublikaya idxal olunan qida məhsullarının beynəlxalq tələblərə uyğun yoxlanılmasını təmin edir, istehsalçı müəssisələrin xarici ölkələrə məhsul ixracını asanlaşdırır.

Muxtar respublikamızda fəaliyyət göstərən və ərzaq məhsullarının istehsalı ilə məşğul olan sahibkarlıq subyektlərinin nəzərinə çatdırmaq istərdik ki, istehsal etdikləri məhsulların laboratoriya göstəricilərinin yoxlanılmasının beynəlxalq standartlar səviyyəsində həyata keçirilməsi və ixrac olunan məhsulların keyfiyyətinin yoxlanılması üçün laboratoriyanın xidmətlərindən istifadə edə bilərlər.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidməti***

# Zəngin ənənələrə malik sənət və təhsil ocağı

## *Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyi qeyd olunur*

***Bu ilin aprelində Naxçıvan Musiqi Kollecinin yaradılmasının 40 illiyi tamam olur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 29 mart 2015-ci il tarixdə “Naxçıvan Musiqi Kollecinin 40 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalayıb. Həmin sərəncam Naxçıvan musiqiçilərinin böyük sevincinə səbəb olmaqla onların gələcək fəaliyyətinə böyük qayğının ifadəsidir.***

40 il, əslində, təhsil ocağı üçün az müddət deyil. Bir qərinədən artıq zaman kəsiyidir. Və düz 40 ildir ki, burada gənc nəslə musiqi elmi, ifaçılıq sənəti öyrədilir. Bu sənət ocağı ölkəmizdə mədəniyyətin, incəsənətin inkişafının dönüş dövründə, çiçəklənən vaxtında yaradılıb. Daha doğrusu, 1974-cü ildə muxtar respublikamızın təşkil olunmasının 50 illik yubiley tədbirində iştirak etmək üçün Naxçıvana gələn xalqımızın ümummilli lideri Heydər Əliyevin bilavasitə təşəbbüsü, tapşırığı ilə həyata vəsiqə alıb. Naxçıvan Musiqi Kolleci ulu öndərin muxtar respublika sakinlərinə bəxş etdiyi hədiyyələrdən və onun yadigarlarından biridir. 1975-ci il aprel ayının 18-də Naxçıvan Orta İxtisas Musiqi Məktəbi kimi fəaliyyətə başlayan bu sənət ocağının ixtisaslı musiqiçi kadrların hazırlanmasında, xalqımıza məxsus musiqi ənənələrinin yaşadılmasında, mahnılarımızın, eləcə də dünya klassik musiqisinin təbliği və öyrənilməsi sahəsində fəaliyyəti təqdirəlayiqdir. Həmçinin onun fəaliyyəti ilə muxtar respublikamızın uşaq musiqi məktəblərinin ixtisaslı müəllimlərlə təmin olunması problemləri də aradan qalxmağa başlayıb. Ümumiyyətlə, Musiqi Kollecinin Naxçıvanın mədəni həyatının inkişafındakı rolu böyükdür. Kollec olmasaydı, Naxçıvan Dövlət Universitetinin Konservatoriyasını yaratmaq da çətin olardı.

Onu da xüsusilə vurğulamaq lazımdır ki, bu sənət məbədi peşəkar musiqiçilər yetişdirməklə yanaşı, eyni zamanda onlara müstəqil düşüncə tərzi, həyat hadisələrinə zamanın fövqündən baxmaq bacarığı da aşılamaqdadır. Yuxarıda adıçəkilən sərəncamda da qeyd olunduğu kimi: ***“Ali musiqi məktəbləri üçün fundamental baza rolunu oynayan Naxçıvan Musiqi Kollecinin muxtar respublikada mədəniyyətin inkişafında və orta ixtisaslı musiqiçi kadrların hazırlanmasında rolu böyükdür. Bu təhsil ocağının yalnız musiqiçi kadrlar deyil, həm də hərtərəfli inkişaf etmiş gənc nəslin yetişdirilməsində də xidmətləri vardır”.***

Bəli, bu gün bu sənət ocağı 40 illik yubileyini geniş şəkildə qeyd etməyə hazırlaşır. Belə bir ərəfədə kollecin keçdiyi yol haqqında söz açmaq yerinə düşər.

1975-ci ildən Naxçıvan Orta İxtisas Musiqi Məktəbi, 1992-ci ildən Naxçıvan Musiqi Texnikumu, 2005-ci ildən isə Naxçıvan Musiqi Kolleci kimi Naxçıvan musiqi mədəniyyətinə dəyərli töhfələr verən bu təhsil ocağı öz fəaliyyətinə 4 ixtisas üzrə başlayıb. Bu məktəbə



“fortepiano”, “xalq çalğı alətləri”, “xalq mahnıları və muğam”, “simli alətlər” ixtisasları üzrə ilk dəfə 31 nəfər tələbə qəbul olunub. Onların təlim-tərbiyəsi ilə 21 nəfər musiqiçi-pedaqoq məşğul olmağa başlayıb.

1977-ci ildə keçirilən ifaçıların I respublika müsabiqəsində 6 tələbə uğurla iştirak edib. İlk nailiyyətlər bu sənət ocağının tanınmasına, buraya maraq və meyillərin artmasına səbəb olub. Ona görə də təkcə Naxçıvan şəhərindən deyil, muxtar respublikanın digər bölgələrindən, ucqar dağ kəndlərindən belə, istedadlı şagirdlər kollecə müraciət etməyə başlayıblar. Sonrakı illərdə muxtar respublikada onlarla uşaq musiqi məktəbinin açılması reallaşıb. Və demək olar ki, bu musiqi məktəblərinin pedaqoji kadrlara olan tələbatı Naxçıvan Musiqi Kollecinin istedadlı musiqiçi kadrları hesabına təmin olunub. Qazanılan uğurlar kollecin bazasının daha da genişlənməsinə şərait yaradıb.

Ötən əsrin 70-80-ci illərində regionumuzda keçirilən festival və müsabiqələrdə, dövlət tədbirlərində kollecin xalq çalğı alətləri orkestri, birləşmiş xoru, xalq çalğı alətləri üçlüyü, vokal qrupu Azərbaycan, eləcə də dünya bəstəkarlarının əsərlərini, xalq musiqi nümunələrini geniş konsert salonlarında sənət korifeyləri qarşısında ifa ediblər. Hələ o zaman “Nəqşi-cahan” (rəhbəri Arif Quliyev) və “Əcəmi naxışları” (rəhbəri Əkrəm Məmmədov) ansamblları Azərbaycan miqyasında tanınıb.

Diyarımızda fəaliyyət göstərən bütün təhsil müəssisələri kimi, Musiqi Kolleci də sürətli inkişaf yoluna 1995-ci ildən sonra çıxıb; uğurları, nailiyyətləri indi daha çoxdur. Belə uğurlardan biri 1999-cu ilin payız günlərinin birində olub. Muxtar respublikanın 75 illik yubiley tədbirlərində bu kollektivin üzvləri də uğurla çıxış ediblər. Bu çıxışlarına görə yubiley şənliklərində iştirak edən ümummilli liderimiz kollecin xor qrupunun çıxışını dinlədikdən sonra kollektivin adını xüsusilə çəkərək xoş sözlər söyləyib. Elə sonrakı illərdə də uğur uğuru, nailiyyət nailiyyəti gətirib. Kollec 2000 və 2004-cü illərdə keçirilən VIII və IX respublika müsabiqələrində Naxçıvanı yüksək səviyyədə təmsil edib.

Naxçıvan Musiqi Kolleci Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin daim diqqət və qayğısı əhatəsində olub. Ali Məclis Sədrinin “Naxçıvan Musiqi Texnikumunun 30 illik yubileyinin keçirilməsi haqqında” 2005-ci il 3 yanvar tarixli Sərəncamına uyğun olaraq, yubileylə bağlı muxtar respublikamızda geniş tədbirlər həyata keçirilib, kollecin binası təmir edilərək 2006-cı ilin yanvar ayında istifadəyə verilib.

Kollec daim yeniləşir, burada yeni ixtisaslar açılır. 1995-ci ildə kollecdə cəmi 6 ixtisas fəaliyyət göstərirdisə, 2005-ci ildə 8, 2014-cü ildə isə bu



rəqəm 11-ə çatdırılıb. Eyni zamanda müəllim və tələbə sayında da dəyişiklik olub. Bu gün Musiqi Kollecində 552 tələbə təhsil alır. Onların təlim-tərbiyəsi ilə 152 ştat üzrə, 30 saathesabı müəllim və konsertmeyster məşğul olur. Kollecdə xalq çalğı alətləri, simfonik, nəfəs alətləri, estrada orkestrləri, qədim musiqi alətləri “Dilrübа” muğam, “Gənclik” instrumental ansamblları, xor kollektivi, “Naxçıvanqala” ritm qrupu, sazçalanlar ansamblı və yallı qrupu fəaliyyət göstərir.

2001-ci ildən kollecdə “fortepiano”, “xalq çalğı alətləri”, “musiqi nəzəriyyəsi” ixtisasları üzrə qiyabi şöbə fəaliyyətə başlayıb.

Kollecin maddi-texniki bazası daim möhkəmləndirilir. Təhsil ocağına 15 ədəd müasir kompüter dəsti və 5 ədəd elektron lövhə verilib. Hazırda burada 18 ədəd kompüter var ki, bu da tələbə və müəllimlərin yeni texnologiyalardan istifadə etməklə bilik və bacarığının artırılmasına imkan verir. Kollecin ayrı-ayrı sinif otaqlarında quraşdırılan elektron lövhələr tələbələrin tədris olunan mövzularla əyani surətdə tanış olmalarına, Azərbaycan xalqının musiqi tarixini, milli-mədəni dəyərlərini öyrənməyə, informasiya-kommunikasiya texnologiyalarını mənimsəməyə şərait yaradıb.

Burada açıq dərslərin keçilməsi, yeni təlim üsullarına geniş yer verilməsi diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında” 14 mart 2015-ci il tarixli Sərəncamına əsasən, Naxçıvan Musiqi Kollecindən 17 nəfər ali-təhsilli və elmi dərəcəsi olan müəllimlərin muxtar respublikanın ümumtəhsil məktəblərində ayda bir dəfə nümunəvi dərslərinin təşkili nəzərdə tutulub. Bu ilin mart ayında kollecin müəllimlərindən 8 nəfəri muxtar respublikanın 6 ümumtəhsil məktəbində nümunəvi dərs keçib.

Bu gün kollecdə oxuyan tələbələrin təlim-tərbiyəsi ilə məşğul olan müəllimlərin əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Son 20 ildə müəllimlərdən 17 nəfəri Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülüb. Fəxri adlara layiq görülmüş müəllimlərdən 6 nəfəri Naxçıvan Musiqi Kollecinin məzunu olub.

***Zaman keçdikcə Naxçıvan Musiqi Kollecinin uğurları da artır. Bu uğurların təməlində təhsil ocağına yaradılan şərait dayanır. Burada oxuyan tələbələr və dərs deyən müəllimlər unutmurlar ki, onlar qədim musiqi sənətimizin gələcəyə ötürücüləridir. Bu vəzifəni ləyaqətlə yerinə yetirməyə çalışan və ulu öndərin yadigarı olan bu kollec artıq özünü təsdiq etdirmiş sənət ocağıdır. Tam əminik ki, gələcəkdə Azərbaycan peşəkar musiqi sənətinin inkişafından söhbət açanda bir ünvanın da adı qürurla səslənəcək: Naxçıvan Musiqi Kolleci.***

**40 yaşın mübarək!**

**Sara ƏZİMOVA**

# Universitetlər arasında əlaqələr genişlənir



*Türkiyə Respublikasının Ərzurum Atatürk Universitetinin rektoru, professor-doktor Hikmət Koçakın rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində olub.*

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirib ki, dünyanın 80-dən çox tanınmış universiteti ilə tərəfdaşlıq edən bu ali məktəb Türkiyə universitetləri ilə əməkdaşlığa xüsusi əhəmiyyət verir. Qardaş ölkənin 40-a yaxın ali təhsil ocağı ilə əməkdaşlıq bu gün də uğurla davam etdirilir. Bu əlaqələrin təməli 1992-ci ildə Ərzurum Atatürk Universiteti ilə əməkdaşlıq vasitəsilə qoyulub. Tibb fakültəsinin və “baytarlıq” ixtisasının tələbələri müxtəlif vaxtlarda bu ali təhsil müəssisəsində təcrübədə olublar, müştərək konfranslar keçirilib. Təsadüfi deyil ki, 2012-ci ildə Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə universitetlərarası elmi-mədəni əlaqələrin inkişafı sahəsindəki xidmətlərinə görə Ərzurum Atatürk Universitetinin rektoru, professor-doktor Hikmət Koçak Naxçıvan Dövlət Universitetinin fəxri doktoru seçilib. Rektor vurğulayıb ki, 2011 və 2012-ci illərdə yenilənən universitetlərarası əməkdaşlıq müqaviləsi bundan sonra da elm və təhsilin inkişafına öz töhfəsini verəcək.

Ərzurum Atatürk Universitetinin rektoru, professor-doktor Hikmət Koçak deyib ki, universitetin beynəlxalq əlaqələrində Azərbaycan ali məktəblərinin özünəməxsus yeri vardır. Naxçıvan Dövlət Universiteti ilə əməkdaşlığın inkişaf etdirilməsi bundan sonra da diqqət mərkəzində saxlanılacaq.

Ərzurum Atatürk Universitetinin prorektoru Mehmet Takkaç universitet haqqında ətraflı məlumat verərək 20 fakültə, 7 institut və 10-a yaxın yüksək məslək məktəbinin fəaliyyət göstərdiyi ali təhsil ocağında on minlərlə tələbənin ali təhsil aldığını diqqətə çatdırıb.

Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Surə Seyid, tərbiyə işləri üzrə prorektoru, fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev, elmi işlər üzrə prorektoru, fizika üzrə fəlsəfə doktoru, dosent Mübariz Nuriyev universitetin dünya təhsil sisteminə inteqrasiyasından, elmi nailiyyətlərindən danışıblar.

Atatürk Universiteti Tibb fakültəsi araşdırma xəstəxanasının baş həkimi, professor Necip Becit 2000-ə yaxın tibbi personalın xidmət göstərdiyi 1400 çarpayılıq xəstəxanada yaradılan şəraitdən, burada aparılan müasir tibbi-diaqnostik müayinələrdən, sümük iliyi, orqan transplantasiyası mərkəzlərinin fəaliyyətindən danışıb. Görüşdə iştirak edən digər tibb mütəxəssisləri Ərzurum Atatürk Universitetində tibb təhsilinin səviyyəsindən, universitet xəstəxanasındakı səhiyyə xidmətindən bəhs ediblər.

Sonra xatirə hədiyyələri təqdim olunub. Türkiyəli qonaqlar universitet ərazisini gəzib, İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzinin, rəqəmsal formatda yayımlanan universitet televiziyasının və “Nuhçıxan” radiosunun, Mətbuat şöbəsinin fəaliyyəti ilə tanış olublar. Müxtəlif fakültələrdəki tədris prosesi, fənn kabinələri və laboratoriyaların təşkili ilə tanışlıq da maraq doğurub.

**Mehriban SULTAN**

# Ailə dəyərləri təbliğ olunur

***Ordubad rayonunun Aşağı Əylis kəndində “Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları” mövzusunda tədbir keçirilib.***

Tədbiri Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli açaraq belə tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova “Ailədə qadının sağlam həyat tərzi aşılamasında əsas rolu” mövzusunda çıxış edib. Bildirilib ki, muxtar respublikada gənc ailələr arasında reproduktiv sağlamlıq və ailə planlaşdırılması, eləcə də qadınların ailədə üzərinə düşən vəzifələrin düzgün yerinə yetirilməsi məqsədilə maarifləndirmə işinin daha geniş surətdə aparılması, qadınların sağlamlığının mühafizəsi sahəsində tibbi xidmətin keyfiyyət və səmərəliliyinin yüksəldilməsi diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, ana və uşaq ölümü hallarının qarşısının alınmasında müsbət göstəriciyə nail olunub. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 iyun tarixli Sərəncamı ilə “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi dövlətin bu sahəyə dəstəyinin göstəricisidir.

Vurğulanıb ki, ailə dəyərlərini qoruyub saxlayan, nəsildən nəslə ötürən qadındır. O, övladının maddi ehtiyaclarını təmin etməklə yanaşı, onu aydın düşüncəyə, saf əqidəyə və ədəb-ərkana yiyələndirməli, bu yolla onun gələcəyini qurmalıdır. Bu, cəmiyyətin gələcəyini qurmaq deməkdir.

Ailədə milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi qoruyub saxlamaq və onların icrasına nəzarət etmək, uşaqların televiziya və internet kimi kütləvi informasiya vasitələrindən istifadəsini çərçivəyə salmaq kimi vəzifələr də ananın öhdəsindədir. Əgər ana uşağın təhsilinə ciddi yanaşmasa, sözsüz ki, cəmiyyətə savadsız bir insan təhvil verəcəkdir. Bir sözlə, ana uşağın gələcək taleyi üçün böyük məsuliyyət daşıyır. Ona görə də yeni nəslin gələcəkdə quracağı ailənin bütövlüyünü qoruyub saxlamaq üçün ana övladlarına milli-mənəvi dəyərlərin öyrədilməsini, onların sağlam yaradıcı əməyə alışmalarını, zərərli vərdişlərdən çəkinmələrini, təhsil-tərbiyə məsələlərini, ümumiyyətlə, sağlam həyat tərzi seçmələrini daim diqqət mərkəzində saxlamalıdır.

Sonra Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva çıxış edərək qadınların sağlamlıqlarının qorunması yolları, reproduktiv sağlamlıq barədə slayd vasitəsilə tədbir iştirakçılarına məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Beynəlxalq Uşaq Kitabı Günü qeyd olunub



***Dünən M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında 2 aprel – Beynəlxalq Uşaq Kitabı Günü ilə bağlı tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm nazirinin müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimova açaraq qeyd edib ki, uşaq ədəbiyyatının inkişafında əvəzsiz rolu olan danimarkalı yazıçı Hans Xristian Andersenin anadan olduğu gün – 2 aprel tarixi 1967-ci ildən etibarən Uşaq Kitabları üzrə Beynəlxalq Şuranın təşəbbüsü ilə bütün dünyada "Beynəlxalq Uşaq Kitabı Günü" kimi qeyd olunur. Nazir müavini bildirib ki, bu günün keçirilməsində məqsəd uşaqların intellektual inkişafında kitabın rolunu göstərmək, kitaba sevgi aşılamaq və diqqəti uşaq kitabının nəşrinə yönəltməkdir.

Dünya və Azərbaycan uşaq ədəbiyyatının yaranması, inkişafı və nəşrindən də danışan Natəvan Qədimova deyib ki, XIX-XX əsrlər ölkəmizdə uşaq ədəbiyyatının inkişafı ilə xarakterizə olunur. Ötən əsrin əvvəllərində M.Ə.Sabir, A.Şaiq, A.Səhhət, S.S.Axundov, C.Məmmədquluzadə, S.M.Qənizadə və başqa görkəmli sənətkarlarımız həm də uşaqlar üçün gözəl əsərlər yazıblar.

Nazir müavini bu gün də ölkəmizdə uşaq kitablarının nəşrinə böyük diqqət yetirildiyini bildirib, uşaqlar üçün nəfis kitabların nəşr edilməsindən söhbət açıb. Muxtar respublikamızda da son illərdə uşaq kitablarının nəşrinə diqqət yetirildiyini deyən Natəvan Qədimova əlavə edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin kitabxanalara, kitab nəşrinə göstərdiyi qayğı muxtar respublikada uşaq ədəbiyyatı nəşrlərinin sayının artmasına səbəb olub.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, şair Asim Yadigar uşaq kitablarının nəşrindən danışarkən qeyd edib ki, son bir neçə ildə Naxçıvan Yazıçılar Birliyi də uşaq kitablarının nəşri ilə bağlı müəyyən işlər görüb. "Uşaqlar və Günəş" kitabı muxtar respublika rəhbərinin qayğısı ilə işıq üzü görüb və ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Bundan başqa, uşaq ədəbiyyatının nümunələrini əks etdirən bir neçə kitab hazırlanaraq nəşr edilib. Bu sahədə işlərimizi bu gündə davam etdiririk. Uşaqlar üçün hazırlanan kitabların mövzu müxtəlifliyi və tərtibatı da hər zaman yazıçı və şairlərimizi düşündürən məsələdir. Maraqlı illüstrasiyalarla, mövzu rəngarəngliyi ilə zəngin olan kitablar uşaqları daha çox cəlb edib.

Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının baş metodisti Nəzakət Əhmədova çıxış edərək uşaq kitabxanasına son illər daxil olmuş uşaq kitabları haqqında danışıb, kitabın uşaqların intelektual inkişafında, nitq mədəniyyətinin formalaşmasında, uşaq təxəyyülünün genişləndirilməsindəki rolundan söhbət açıb. Qeyd olunub ki, kitabın cəmiyyətdə rolu əvəzolunmazdır. Uşaq kitablarının balacaların əqli inkişafındakı rolu heç bir zaman əhəmiyyətini itirməyəcəkdir.

Tədbir başa çatdıqdan sonra uşaqlar arasında bilik yarışı keçirilib və qaliblər son illər dilimizdə nəfis şəkildə nəşr olunmuş dünya uşaq ədəbiyyatı nümunələrindən ibarət kitablarla mükafatlandırılıblar. Bilik yarışından sonra isə balaca oxuculara M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının hazırladığı "Nəğməkar bülbül" tamaşası göstərilib.

Sonda kitab sərgisinə baxış olub.

**Əli RZAYEV**

## Futbol üzrə muxtar respublika çempionatı davam edir

### *"Araz-Naxçıvan" cari mövsümdə məğlub olmayan yeganə komandadır*

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi futbol üzrə Naxçıvan Muxtar Respublika çempionatı davam edir. Cari mövsümün başa çatmasına az bir müddət qalmış çempionluq uğrunda mübarizə həyəcanı da artmaqdadır. Artıq turnir cədvəlinin ilk 3 pilləsində qərarlaşan komandalar qarşıdakı oyunlarda xal itirməməyə çalışmalıdırlar. Əks təqdirdə, mövsüm ərzində çəkdikləri əziyyətlər hədər gedəcək.***



Hazırda turnir cədvəlinə başçılıq edən "Dinamo" futbol komandasının aktivində 34 xal var. Keçirdiyi 13 oyunda yalnız meydanı bir dəfə məğlub tərk edən Daxili İşlər Nazirliyinin komandasını qarşıda daha çətin oyun gözləyir. "Araz-Naxçıvan"la görüş eyni zamanda çempionatın taleyini həll edəcək. Mövsümə iddialı başlayan "Araz-Naxçıvan" cari mövsümdə məğlub olmayan yeganə komandadır. Həmçinin "qırmızı-ağlar" rəqibi ilə müqayisədə bir oyun az keçirib. Yəni qarşıdakı turlarda qələbə qazanacağı təqdirdə, Naxçıvan Muxtar Respublika çempionatında növbəti mövsümün qalibi "Araz-Naxçıvan" ola bilər. Hazırda "qırmızı-ağlar"ın aktivində 12 oyundan 34 xal var.

Hər mövsüm çempionatın favoriti kimi göstərilən və ötən ili çempion kimi başa vuran "Universitet" komandası da uğurunu təkrarlaya bilər. Əslində, dövlət universitetinin yetirmələri "Araz-Naxçıvan"la oyuna kimi turnir cədvəlində ikili hakimiyyət yaratmışdılar və "Dinamo" ilə birgə liderlik "kreslo"sunda əyləşmişdilər. Lakin iki görüşdə "qırmızı-ağlar"a məğlub olan tələbələr (3:2, 4:2) çempionluq yarışında özlərini bir qədər çətinə saldılar. İndiyədək "Universitet" komandası 14 oyun keçirib və aktivində 31 xalı var.

Bütün görüşlərini qələbə ilə başa vuracağı və ilk üç pillədə qərarlaşan komandaların xal itirəcəyi təqdirdə, "Arpaçay" komandası mövsümü çempion kimi başa vura bilər. 15 görüşdə aktivinə 27 xal yazdırmağı bacaran şərurlular doğma arenada sərgilədikləri oyunla hamını təəccübləndirməkdədirlər. İndi onların ən real şansı mövsümü üçüncü pillədə başa vurmaqdır.

Dörd komandadan fərqli olaraq, çempionatın digər 6 təmsilçisinin mövsümü mükafatçılar sırasında başa vurmağa şansları qalmayıb. Yalnız 12 oyundan sonra 7-ci pillədə qərarlaşan "Babək" komandası qarşıdakı bütün görüşlərini qələbə ilə başa vuracağı halda, mövsümü ilk dördlükdə tamamlaya bilər. Turnir cədvəlinin 5-ci pilləsində özünə yer tapan Şahbuzun "Batabat" komandası meydanı bu günədək 6 qələbə ilə tərk edibsə, 6-cı pillədəki "Əlincə" (Culfa) bunu 4 dəfə bacarıb. Son pillələrdə isə "Dübəndi" (Ordubad), "Sədərək" və "Kəngərli" komandaları qərarlaşıblar.

Bombardirlər cədvəlində də lider komandaların futbolçuları arasında kəskin mübarizə gedir. "Araz-Naxçıvan"lı hücumçu Tağı Seyidovun başçılıq etdiyi cədvəldə (12 qol) digər iki pilləni Turqay İbrahimov ("Araz-Naxçıvan" – 12 qol) və Həsən Qaraaslan ("Universitet" – 11 qol) paylaşırlar.

## Voleybol birinciliyi bu gün başa çatacaq





***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə Naxçıvan Muxtar Respublika açıq birinciliyi davam edir.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi birincilikdə artıq qrup mərhələsinin oyunları başa çatıb.

Qrup oyunlarının son günü gərgin mübarizə ilə yadda qalıb. A qrupunda liderlik uğrunda mübarizə "DİN" və "Sədərək" komandaları arasında olub. Daha baxımlı oyun sərgiləyən sədərəklilər 3:1 hesabı ilə qalib gəldilər. Qrupun digər oyununda azarkeşlər 5 setə şahidlik ediblər. "Şahbuz" komandası "Ordubad" komandasını 3:2 hesabı ilə məğlub edərək qələbə qazanıb.

B qrupunda isə yarımfinala "Culfa" və "Şərur" voleybolçuları vəsiqə qazanıblar. Qrupun son oyunlarında "Şərur" "Babək"i, "Culfa" isə "Kəngərli"ni məğlub etməyi bacarıb. Hər iki görüş 3:0 hesabı ilə başa çatıb.

Artıq Naxçıvan Muxtar Respublika açıq birinciliyinin finalçıları da məlumdur. Dünən keçirilən yarımfinal görüşlərində aşağıdakı nəticələr qeydə alınıb:

*"Sədərək"-3 – "Culfa"-1*
*"Şərur"-0 – "DİN"-3*

Beləliklə, bu gün keçiriləcək final oyununda "Sədərək" və "DİN" komandaları qarşılaşacaqlar.

Dünən voleybolçular Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində və Dövlət Bayrağı Muzeyində olublar.

**Ceyhun MƏMMƏDOV**

## Elan

Naxçıvan Müəllimlər İnstitutunda "Təhsil kurikulumları: praktik tətbiqlər" mövzusunda respublika elmi konfransı keçiriləcəkdir.

Konfransda aşağıdakı bölmələr üzrə məruzələr dinləniləcəkdir:

*1. Ümumtəhsil məktəblərində şəxsiyyətyönümlü kurikulumların tətbiqi yolları*
*2. Nəticəyönümlü kurikulumların tətbiqi*
*3. Kurikulumların tətbiqində dərs nümunələri*
*4. Məktəbəqədər müəssisələrdə kurikulumların tətbiqi yolları*
*5. Kurikulumda strategiyalar.*

Konfransda respublikanın ali, orta təhsil və məktəbəqədər müəssisələrinin əməkdaşları məruzələrlə çıxış edə bilərlər.

Tezislər konstruktiv, konkret və konfransın mövzusuna uyğun olmalıdır və 1 sm intervalla, 14 şriftlə (Times New Roman), formatı – soldan, sağdan, yuxarıdan, aşağıdan 2 sm olmaq şərti ilə 1-3 səhifə həcmində təqdim olunmalıdır. Müəlliflərin adı, soyadı, elmi dərəcəsi, iş yeri məqalənin adının altında yazılmalıdır.

Konfransın materialları məcmuə şəklində nəşr olunacaqdır.

Məruzələr 20 aprel 2015-ci il tarixədək Naxçıvan Müəllimlər İnstitutunun elmi hissəsində qəbul olunur.

Konfrans 24 aprel 2015-ci il tarixdə saat $11^{00}$-də Naxçıvan Müəllimlər İnstitutunun akt zalında keçiriləcəkdir.

***Ünvan: Naxçıvan şəhəri,***
***Heydər Əliyev prospekti 1***
***Naxçıvan Müəllimlər İnstitutu***
***Telefon: (+99036)545-32-02***
***(+99036)544-04-29***
***Faks: (+99036)545-32-02***

## 2015-ci ilin aprel ayında rayon (şəhər) məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| № | Rayon (şəhər) | Yarmarkanın keçirildiyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | Heydərabad qəsəbə mərkəzi | 07.04.2015 | $11^{00}$ |
| 2. | Kəngərli rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 08.04.2015 | $11^{00}$ |
| 3. | Şahbuz rayonu | Şahbuz şəhər "Araz" kinoteatrının binası | 09.04.2015 | $11^{00}$ |
| 4. | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 10.04.2015 | $11^{00}$ |
| 5. | Ordubad rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 14.04.2015 | $11^{00}$ |
| 6. | Babək rayonu | Mədəniyyət və Turizm Şöbəsinin binası | 15.04.2015 | $11^{00}$ |
| 7. | Şərur rayonu | Şərur Şəhər Mədəniyyət Sarayı | 16.04.2015 | $11^{00}$ |
| 8. | Naxçıvan şəhəri | "Gənclik" Mərkəzi | 17.04.2015 | $11^{00}$ |

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi

### *icra məmuru vəzifələrinə işə qəbulla əlaqədar müsabiqə elan edir*

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin icra xidmətində icra məmuru vəzifələrinə işə qəbul olunmaq istəyən şəxslər üçün 19 ştat vahidi üzrə müsabiqə elan edir.

İcra məmuru vəzifələrinə işə qəbulla bağlı müsabiqədə iştirak etmək istəyən namizədlər 2 ədəd arxası ağ fonda 3x4 sm ölçüdə rəngli fotoşəkil təqdim etməklə müraciət formasını doldurmaq üçün Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə müraciət edə bilərlər.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin icra xidmətində icra məmuru vəzifələrinə işə qəbul olunmaq üçün sənədlərini təqdim etmək istəyən şəxslərin nəzərinə çatdırılır ki, onların ali hüquq təhsili Azərbaycan Respublikası ərazisində müvafiq qaydada tanınan diplomla təsdiq edilməli və onlar Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilməlidirlər. İcra məmuru vəzifələrinə 30 yaşınadək olan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar. "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, ikili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum edilmiş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, tibbi rəyə əsasən fiziki və ya əqli qüsurlarına görə icra məmuru işləməyə qadir olmayan, qanunla müəyyən edilmiş həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar, məhkəmə, prokurorluq, ədliyyə, digər hüquq-mühafizə və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər icra məmuru vəzifəsinə işə qəbul edilmirlər.

Sənədlər Naxçıvan şəhəri, İslam Səfərli küçəsi 9-da yerləşən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin inzibati binasında 2015-ci il aprel ayının 10-dan 2015-ci il iyun ayının 10-dək hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat $10^{00}$-dan $18^{00}$-dək qəbul olunacaqdır. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin icra xidmətində qulluğa qəbul olunmaq üçün müraciət etmiş və sənədləri qəbul edilmiş namizədlər üçün aşkarlıq şəraitində şəffaflıq təmin edilməklə müsabiqə və müsahibə təşkil ediləcək. Müsabiqə imtahanı Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi ilə birlikdə keçiriləcəkdir. Müsabiqə imtahanının yekunlarına görə, 60 və daha artıq bal toplamış namizədlər müsahibəyə buraxılacaqlar. Müsabiqədə bərabər nəticələr əldə etmiş şəxslərdən xarici dilləri mükəmməl bilənlərə üstünlük veriləcəkdir.

İmtahanın vaxtı, yeri, imtahan suallarının hazırlanmasında istifadə edilmiş qanunların siyahısı və digər məlumatlar barədə əlavə məlumat veriləcəkdir.

***Əlavə məlumatlar almaq üçün 545-00-69, 545-22-30 nömrəli telefonlar vasitəsilə müraciət etmək olar.***

### İtmişdir

Türkiyə vətəndaşı Kahraman Çelik İbrahim oğlunun adına Naxçıvan Muxtar Respublikası ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 270